# PSİXOLOGİYA

## KİÇİK QRUPLARDA SOSİAL-PSİXOLOJİ İQLİM VƏ İDARƏETMƏ MƏSƏLƏLƏRİ

**A.A.ŞİRİYEV**
***Bakı Dövlət Universiteti***
***Sh.aydın59@ mail.ru.***

*Sosial qavrayışın səviyyəsi və kiçik hərbi qrup üzvlərinin ünsiyyət və qarşılıqlı əlaqəsinin məmnunluq həddi ilə xarakterizə olunan kollektivin vəziyyəti sosial-psixoloji iqlim adlanır.*

*Azərbaycan Respublikasının müdafiə qabiliyyətinin və Silahlı Qüvvələrin döyüş hazırlığının lazımi səviyyədə qorunub-saxlanılmasında zabit heyətinin böyük rolu var. Hal-hazırda Azərbaycan Silahlı Qüvvələrinin yarandığı və inkişaf etdiyi şəraitdə bizə tək yüksəkixtisaslı zabit-rəhbərlər yox, həm də müasir dövrün tələblərinə cavab verə bilən psixoloji cəhətdən düşüncəli, idarəetmədə ağıllı peşəkarlar lazımdır.*

*Kiçik hərbi qruplarda sosial-psixoloji iqlimin idarə edilməsi üçün zabit-rəhbər bütün kateqoriyadan olan hərbi qulluqçuların səciyyəvi xüsusiyyətlərini həmişə diqqət mərkəzində saxlamalıdır.*

*Aparılan tədqiqatlar sübut edir ki, sosial-psixoloji iqlimi idarə edən zabit-rəhbərin nüfuzu bir çox hallarda onun kollektivdə yaranan ictimai rəyin yaradıcısı olmasından, hərbi xidməti səmərəli təşkil etmək bacarığından, tabeliyində olanları qarşıya qoyulan tapşırıqları yerinə yetirməyə səfərbər etmək qabiliyyətindən asılıdır.*

*Kiçik hərbi qrupların idarə edilməsinə qoyulan tələblər çox böyük olub, günü-gündən artmaqdadır. Zabit-rəhbər, təşkilati bacarıqlara malik olub, şəxsi nümunəsi və zəngin mənəviyyatı ilə yanaşı, psixoloji-pedaqoji bilikləri tətbiq etmək bacarığına yiyələnməlidir.*

Sosial qavrayışın səviyyəsi və kiçik hərbi qrup üzvlərinin ünsiyyət və qarşılıqlı əlaqəsinin məmnunluq həddi ilə xarakterizə olunan kollektivin vəziyyəti sosial-psixoloji iqlim adlanır. Onu da qeyd etmək lazımdır ki, sosial qavrayış, öz növbəsində, hərbi kollektivin şüur səviyyəsindən, mənəvi və ideoloji yetkinliyindən çox asılıdır. Qavrayış hərbçilərin ayrı-ayrı duyğularının, həyəcanlarının və təəssüratlarının cəmindən hər hansı bir hadisəyə və ya komandirin təsirinə münasibət göstərməsindən əmələ gəlir və bunun nəticəsində fərdi və qrup hissləri, rəy və əhval-ruhiyyə formalaşır. Sosial-psixoloji iqlim fərdi və qrupun psixi xüsusiyyətlərinin qeyri-bərabər olması kimi incəliklərə malikdir. Məsələn, əsgərin xoş əhvalına həm qabaqcıl kiçik hərbi qrupda, həm də komandirlərin tələbkarlığının aşağı olduğu kollektivdə də rast gəlmək olar.

Hərbi kollektivin həyat şəraitində və fəaliyyətində sosial-psixoloji iqlimin əhəmiyyəti çox böyükdür. Bu, hərbçilərin münasibətlərinin, fikirlərinin, hisslərinin, əhvalının, həyəcanının, istəyinin, marağının hakim mövqe tutan tərəfidir [1, 235].

Hərbi qrupda mənəvi və psixoloji iqlimin bünövrəsi həmin kollektivin fəaliyyəti (döyüşün aparılması, təlim, dinc xidmət dövründə, döyüş texnikasına və silahlara qulluq edilməsi və s.), döyüş hazırlığı, güzəranı və asudə vaxtında əmələ gəlir. Məlumdur ki, hər bir qrup özünün rəsmi strukturu ilə bərabər, həm də müəyyən qeyri-rəsmi və ya psixoloji quruluşa malikdir. Qrupun qeyri-rəsmi quruluşu onun üzvlərini müəyyən psixoloji əlamətlərə görə birləşdirən ayrı-ayrı kiçik qruplar kimi meydana çıxır və qarşılıqlı münasibətlərin gündəlik ünsiyyəti zamanı təzahür edən müxtəlif növlərdə ifadə olunur [2, 198].

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra Milli Ordunun yaradılmasına başlanılmışdır. Bu zaman ordu quruculuğunun əsas tərkib hissəsi olan təlim-tərbiyə məsələlərinin həlli istiqamətində ciddi çətinliklər meydana gəlmişdi ki, bunun da əsas səbəbi vətənpərvər, peşəkar və savadlı zabit kadrlarının çatışmaması idi. Bu mühüm faktı vaxtında və düzgün qiymətləndirən ümummilli liderimiz Heydər Əliyev demişdir: «Zabit nə qədər ağıllı, komandir nə qədər bilikli olsa da, əgər tabeliyində olan hərbi hissədəki əsgərlər onu sevmirlərsə, ona hörmət etmirlərsə, zabitdən, komandirdən lazımi hərbi bilik ala bilmirlərsə, beləliklə, hərbi peşəni mənimsəyə bilmirlərsə, onda o zabit, komandir öz hərbi hissəsinə uğurlu rəhbərlik edə bilməz. Bəlkə də, sıraya düzüləndə hamı yaxşı oxuyacaqdır, addımlayacaqdır, hamı yaxşı əsgəri salam verəcəkdir. Bunlar olacaqdır. Amma döyüşdə necə olacaqdır? Əsas – döyüşdə necə olacağını düşünmək lazımdır. Ona görə də, əsgərə qayğı, atalıq münasibəti göstərmək, onu tərbiyələndirmək lazımdır» [3, 106]. Ulu öndərimizin dedikləri öz aktuallığını bu gün də itirməyib.

Azərbaycan Respublikasının müdafiə qabiliyyətinin və Silahlı Qüvvələrin döyüş hazırlığının lazımi səviyyədə qorunub-saxlanılmasında zabit heyətinin böyük rolu var. Onlar ordunun bünövrəsi sayılırlar. Hərbi biliklərin mənəvi əsasını və döyüş ənənələrinin daşıyıcısı olan zabit korpusu ordunun əsas qabiliyyətini formalaşdıran qüvvə kimi çıxış edir. Hərbi xidmətin təhlili göstərir ki, zabit-rəhbər öz xidməti borclarını keyfiyyətlə yerinə yetirməsi üçün müəyyən qabiliyyətlərə malik olmalıdır:

- **akademik qabiliyyətlər.** Bu qabiliyyətlər hərbi psixologiya, pedaqogika, tarix və s. elm sahələrini əhatə edir. Zabit-rəhbər xidməti fəaliyyət nəticələrini daim analiz etməli, mövcud qüsur və nöqsanların meydana çıxma səbəblərini müəyyənləşdirməli, onların aradan qaldırılma yollarını axtarmalı və tapmalıdır;
- **təşkilati qabiliyyətlər.** Zabit-rəhbər kiçik hərbi qrupları möhkəmləndirməli, sağlam sosial-psixoloji iqlim yaratmalı və qarşıya qoyulmuş təlim-döyüş tapşırıqlarını yerinə yetirmək üçün şəxsi heyəti ruhlandırmalıdır;
- **şəxsi nüfuz qabiliyyəti.** Hərbçilərin emosional-iradi keyfiyyətlərinə bilavasitə təsir etməklə qarşıya qoyulmuş tapşırıqların yerinə yetirməsini nəzərdə tutur. Zabit-rəhbərin vəzifəsi həqiqi avtoritetə sahib olmaq və onu inkişaf etdirməkdir;
- **didaktik qabiliyyətlər.** Rəhbər sənədlərlə şəxsi heyəti məlumatlandırmaq, tədris materialını hərbçilər üçün əlverişli etmək, informasiyalara, tədris planının mənimsənilməsinə marağı artırmaq və hərbçilərdə müstəqil düşünmə fəallığını yaratmaq kimi məsələləri nəzərdə tutur. Didaktik qabiliyyətli zabit-rəhbər tədris materialını yenidən işləmək, uyğunlaşdırma aparmaq, çətini-asan, mürəkkəbi-sadə, aydın olmayanı-aydın etmək bacarığına malikdir;
- **perspektivli qabiliyyətlər.** Zabit-rəhbərin müxtəlif dərəcəli hərbçilərin daxili aləminə nüfuz etmək, psixoloji müşahidə aparmaq, hərbçi şəxsiyyətinin incəlikləri ilə bağlı məqamları dərk etmək qabiliyyətidir. Zabit-rəhbər hərbi qulluqçularda cüzi hiss

edilən əlaməti, onların daxili vəziyyətində əmələ gələn ən adi dəyişikliyi hiss etməli və bununla əlaqədar olaraq lazımi tədbir görməlidir;

- **nitq qabiliyyəti.** Öz fikir və duyğularını, hisslərini sözlərlə, eləcə də, mimika və pantomimikaların köməyilə dəqiq ifadə etmək qabiliyyətidir. Zabit-rəhbərin nitqi öz daxili gücü, inandırıcılığı, sadəliyi və anlaşıqlığı ilə seçilməlidir;

- **kommunikativ qabiliyyətlər.** Zabit-rəhbərin müxtəlif kateqoriyalı hərbçilərə düzgün yanaşma üsulunu axtarmaq və tapmaq, onlarla nizamnamə çərçivəsində sağlam qarşılıqlı münasibət qurmaq qabiliyyətidir;

- **proqnostik qabiliyyətlər.** Bu, zabit-rəhbərin öz fəaliyyət nəticələrini qabaqcadan görməsində ifadə olunur. Həmin qabiliyyət şəxsi heyətin fərdi xüsusiyyətlərinin öyrənilməsini və hərbçi şəxsiyyətinin layihələndirilməsini nəzərdə tutur;

- **diqqəti cəlb etmək qabiliyyəti.** Zabit-rəhbərin təlim-tərbiyə prosesində eyni zamanda bir neçə fəaliyyət üzərində diqqəti özünə cəlb etmək qabiliyyətidir.

Beləliklə, meydana çıxa biləcək ekstremal hallarda vəzifə borclarını yerinə yetirməyə ciddi hazırlaşan hər bir zabit-rəhbər səylə çalışaraq sadalanan qabiliyyətlərə sahib olmalı və təlim-tərbiyə prosesini optimal inkişaf etdirməlidir.

Zabit peşəsi «insan-insan» tipli xüsusiyyətlərə aiddir. Bu işin əsas hissəsi komandirlik, təşkilatçılıq, müəllimlik və tərbiyəçiliklə bağlı olduğuna görə onun strukturu və məzmunu mürəkkəb məna kəsb edir. Zabitin komandirlik, təşkilatçılıq, müəllimlik və tərbiyəçiliklə əlaqədar fəaliyyətini özündə birləşdirən keyfiyyətlərin formalaşmasında hərbi elmi-nəzəri və praktiki savadlılığı, psixoloji-pedaqoji bilikləri və metodiki ustalığı kompleks formada hərbi fəaliyyətlə əlaqələndirmək bacarığı mühüm əhəmiyyət kəsb edir.

Zabit xarakterində bir sıra mühüm keyfiyyətlərin olması tələb olunur: güclü iradə (zabit üçün bu çox vacibdir, çünki iradə müstəqillik tələb edir ki, bu xüsusiyyət də zəif iradəli adamlarda olmur), sözünə sadiqlik (öz sözündən qaçmaq zabit rütbəsinə layiq deyil), şərəf və özünüqiymətləndirmə (özünüqiymətləndirmədə xırdaçılıq olmamalıdır), öz heysiyyatını yüksək tutmaq (iyanələrdən uzaq olmaq), tabelikdə olanların şəxsiyyətinə hörmət və ədalətlə yanaşmaq, insanlarla davamlı ünsiyyət qurmaq, yaxşı əhval-ruhiyyə yaratmaq, niyyəti tez başa düşmək, başqalarının əhval-ruhiyyəsini və fikirlərini düzgün anlamaq, xeyirxah və qayğıkeş olmaq və s. Eləcə də, vətənpərvərlik ruhu, Konstitusiyaya, dövlətçiliyə və hərbi borca sədaqət hissi, yüksək peşəkarlıq, rəhbərlik etmək bacarığı, yüksək mədəniyyət, geniş erudisiya, pedaqoji ustalıq, hərtərəfli bilik, mənəvi saflıq və fiziki kamillik zabit-rəhbəri başqa peşə sahiblərindən fərqləndirməlidir.

Zabit-rəhbərin fəaliyyətinə müsbət təsir göstərən amillərdən biri də onun nəzakətli davranışıdır. Lazımi davranış səviyyəsi olan zabit-rəhbər özünü idarə etməyi bacarır, kollektivdə müsbət əhval-ruhiyyə yaratmaq ustalığına yiyələnir. Nəzakətli olmaq hər bir şəxsə kollektivdə nüfuz və hörmət qazandırır, ona bəslənən inamı artırır.

Sabit və möhkəm xarakter zabit-rəhbərin sosial-psixoloji keyfiyyətlərinin, mənəvi ruhunun göstəricisi kimi təzahür edir. Xarekterin sabitliyi və möhkəmliyi kollektivin idarə olunmasında, əlverişli sosial-psixoloji iqlimin yaranmasında mühüm rol oynayır. Sabit xarakter, adətən, rasional düşüncə tipi ilə bağlı olur, lakin emosional amillərin rolunu istisna etmir. Bu dəyərli xüsusiyyətlərin ahəngdar vəhdətinə nail olan zabit-rəhbərlər, heç şübhəsiz ki, kiçik hərbi qruplarda həm psixoloji mühiti, şəxsiyyətlərarası münasibətləri nizama salmaq, həm də ən mühüm məqamlarda təşəbbüsü öz üzərinə götürmək, qarşıya qoyulan məqsədə çatmaq üçün səyləri əlaqələndirərək bir

məcraya salmaq funksiyasını uğurla yerinə yetirirlər.

İnsanın mənəvi aləmi ilə bağlı xüsusiyyətlərdən biri də həssaslıqdır. Həssaslıq-insana diqqətlilik və qayğıkeşlik əlamətidir. Həssas zabit-rəhbər özünə inanır, hərbi qulluqçuların qəlbinə yol tapmağı bacarır. Tabelikdə olanlar belə komandirləri yüksək qiymətləndirir, onlara hörmət edirlər. Bu zabit-rəhbərlər asanlıqla fərdi qaydada hər bir əsgərə və bütövlükdə, kollektivə böyük təsir imkanlarına malik olurlar.

Zabit-rəhbərin əsgər kollektivində sağlam sosial-psixoloji iqlimin yaradılmasında həlledici rolu vardır, çünki o özü bu hadisənin bilavasitə əsas müəyyənedici faktorudur. Zabit-rəhbər öz tabeliyində olan kiçik hərbi qrupda elə bir sosial-psixoloji iqlim formalaşdırmalıdır ki, bunun nəticəsində şəxsi heyət çaşqınlıq, yorğunluq hisslərini dəf edə bilsin, ekstremal vəziyyətdə də öz qüvvə və bacarağına inansın və beləliklə, onları cəsarətli, dözümlü, inadkar olmağa ruhlandırsın.

«Nüfuz, hər şeydən əvvəl, saxlanmış olan güzəşt və tapşırıqlar baxımından açıqlanan bir məfhumdur. Bu mənada nüfuzu əlində saxlayan şəxsə hamının itaət etməsi vacibdir. Təsir altında olan təbəqə isə itaət etməklə cavabdehlik daşıyır. Nüfuzun kimlərin əlində saxlanılacağı və kimlərin itaət edəcəyi qanun və idarəçilikdə göstərilmişdir» [4, 27].

Həqiqi nüfuz, mənəvi və demokratik nüfuz və idarəetmə nüfuzu nüfuzun tərkib hissələridir. Nüfuz sosial-psixoloji hadisə olub, ikili xarakter daşıyır: xidməti nüfuz və liderlik nüfuzu.

Zabit-rəhbərin xidməti nüfuzu-onun tutduğu vəzifəyə, hərbi rütbəyə, sosial statusuna əsaslanan nüfuzdur. Onun liderlik nüfuzu xarakterə, əqli, intellektual keyfiyyətlərə, xeyirxahlığa, qayğıkeşliyə, kommutativlik bacarığına və s. əsaslanan nüfuzdur.

Xidməti nüfuz mütləq liderlik nüfuzu ilə möhkəmləndirilməli və tamamlanmalıdır. «Zabit peşə bilikləri ilə yanaşı insan və toplumlara psixoloji cəhətdən təsir edən metodları ilə bölməyə rəhbərlik etməli, inam mənbəyi olmalı, hər zaman cəsarət verməli və əhval-ruhiyyəni yüksəltməlidir. Belə bir duyğu və həmrəyliyi yaradan komandir eyni zamanda bölmənin lideridir» [5, 1].

Əgər zabit-rəhbər tabelikdə olanlar arasında nüfuz və hörmət qazana bilsə, onda gördükləri işin təsiri də yüksək nəticə verəcəkdir. Bu keyfiyyətlər zabit-rəhbərə vəzifə ilə verilmir. Yalnız öz məharətlərini daim artıran, intizamı qoruyan, tabeliyində olanların təlim və tərbiyəsində qabaqcıl metodlardan istifadə edən zabit-rəhbər qeyd olunan dəyərlərə sahib çıxır. Başqa sözlə desək, nüfuz və hörməti zorla, yaxud sifarişlə qazanmaq mümkün deyil. Kiçik hərbi qruplarda nüfuzu (avtoriteti) aşağıdakı kimi təsnif etmək olar:

- həqiqi avtoritet;
- nisbi avtoritet;
- saxta, yalançı avtoritet;
- nəsihətçi avtoritet;
- lovğa avtoritet.

Zabit-rəhbər kiçik hərbi qrupda həqiqi avtoritetə sahib olmalı və onu daim inkişaf etdirməlidir.

Zabitlərin tərbiyə olunmasında bəzi spesifik xüsusiyyətlərin nəzərə alınması məqsədəuyğundur. Pozitiv xüsusiyyətlər aşağıdakılardır:

- intizamlılıq;
- icraçılıq;
- çalışqanlıq;

- enerjili olmaq;
- böyük komandirlərə möhkəm inamlı olmaq;
- müstəqilliyə və özünütəsdiqə səy göstərmək;
- şəxsi heyətlə münasibətdə tələbkarlıq;
- hərbi xidmətin maraqla və romantik dərk edilməsi;
- peşəkarlıq şöhrətpərəstliyi;
- tapşırılmış iş üçün şəxsi məsuliyyət hissi daşımaq.

Hərbi qulluqçuların mənəvi-psixoloji vəziyyətinə mənfi təsir edən xüsusiyyətlər bunlardır:

- ətraf mühitin neqativ təsirinə həssaslıq;
- hadisə və vəziyyətləri qiymətləndirərkən mühakimələrdə maksimalizmə yol vermək;
- təmkinsizlik;
- münaqişəyə meyllilik;
- özlərinə möhkəm inamın olmaması;
- tez təsirlənmək;
- sözgötürməzlik və çılğınlıq;
- qərar qəbul etməyə tələsmək;
- ekstremal situasiyalarda psixoloji cəhətdən zəiflik;
- həddən artıq emosionallıq;
- məişətin və xidmətin təşkilindən narazılıq;
- tabeliyində olanların tərbiyələndirilməsində vərdiş və hazırlığın zəifliyi.

Bu xüsusiyyətlər zabit-rəhbərin nizamnamə qaydalarının qorunub saxlanılması, fərdi tərbiyə işinin aparılması və kiçik hərbi qruplarda sağlam sosial-psixoloji iqlimin yaradılmasına mənfi təsir göstərir.

Azərbaycan Silahlı Qüvvələrində mövcud olan bir sıra sosial faktorları, bölgədəki hərbi-siyasi şəraiti, milli psixoloji xüsusiyyətləri zabit-rəhbərlərin hazırlığında nəzərə alınması məqsədəuyğundur. Azərbaycan Silahlı Qüvvələrinin düşmənlə üzbəüz dayandığı, fəal döyüş vəziyyətinə yaxın bir şəraitdə fəaliyyət gəstərdiyi indiki məqamda zabitlərin hazırlığına diqqətin artırılması xüsusi aktuallıq kəsb edir. Bu fikri 12 oktyabr 1999-cu ildə Naxçıvanda «N» saylı hərbi hissənin şəxsi heyəti qarşısında çıxış edərkən ümummilli liderimiz Heydər Əliyev də qeyd etmişdir: «Hər bir zabit, komandir əsgərdən, özünə tabe olan zabitdən nizam-intizam tələb edərkən, qanun-qaydaya riayət etməyi tələb edərkən, özü bu barədə nümunə gəstərməlidir. Yüksək rütbəli zabitlərin, generalların nümunəsi, şübhəsiz ki, bütün orduda sağlam mühit, sağlam əhval-ruhiyyə, möhkəm nizam-intizam yaratmaq üçün əsasdır» [6, 7].

Hərbçi fəaliyyətinin təhlili göstərir ki, zabit heyətinin hərbi və döyüş məharətinin formalaşması özü-özünə inkişaf etmir, buna görə də, onun öz üzərində müstəqil işləyərək hərbi elmi-tədqiqat, pedaqoji-psixoloji və elmi-metodiki işlərinin aparılmasında fəal iştirak etməsi çox vacibdir. Hərbi əməliyyatları idarə etmək nöqteyi-nəzərindən zabit-rəhbərin hazırlıq səviyyəsini aşağıdakı kimi təsnif etmək olar:

- strateji və taktiki məsələləri qarşıya qoymaq və onların həllinə istiqamət vermək;
- silah və döyüş texnikasından istifadənin səmərəliliyinin təkmilləşdirilməsinə istiqamət vermək;
- təlim-tərbiyənin səviyyəsinin yüksəldilməsinə istiqamət vermək.

Məlumdur ki, əvvəllər psixoloji hazırlığı hərbi qulluqçuların ümumi hərbi hazırlığının vacib elementi kimi qiymətləndirilmir və ideya-siyasi hazırlığa daha çox

önəm verilirdi. Son illər vəziyyət kökündən dəyişmişdir. Dünyanın ayrı-ayrı hissələrində gedən müharibələri təhlil edən hərbi mütəxəsislər döyüş vəziyyətinə maksimum yaxın şəraitdə hərbi qulluqçuların psixi hazırlığını ön plana çəkmişlər. Onlar konkret olaraq bu konsepsiyanı irəli sürmüşlər:

- hərbçi təlim prosesində nə qədər çox uğur qazanırsa, həqiqi müharibə şəraitinə bir o qədər tez uyğunlaşır;
- hərbi qulluqçularda bütün psixoloji keyfiyyətlərdən öncə, özünə inam hissi formalaşdırmaq lazımdır;
- pixoloji metod və üsullar rəngarəng olmalıdır [7,61].

Nəticə kimi aşağıdakıları qeyd edə bilərik:

1.Zabitlik peşəsi «insan-insan» tipli xüsusiyyətlərə malik olduğuna görə hərbi təlim-tərbiyə prosesi komandir heyətindən xüsusi qabiliyyətlərin təkmilləşdirilməsini tələb edir.

2.Təlim-tərbiyə prosesinin müvəffəqiyyətli inkişafında obyektiv və subyektiv amillərin meydana çıxardığı psixoloji ziddiyətlərin pedaqoji taktla aradan qaldırılması zabit-rəhbərdən hərbi-pedaqoji məharət tələb edir.

3.Zabit-rəhbərin əsgər kollektivində sağlam sosial-psixoloji iqlimin yaradılmasında həlledici rolu vardır və həmin iqlimin sağlam olmasının əsas müəyyənedici faktoru zabit-rəhbərin nüfuzudur. Zabit-rəhbərin vəzifəsi kiçik hərbi qrupda həqiqi nüfuza sahib olmalı və onu daim inkişaf etdirməlidir.

4.Sosial-psixoloji iqlimin idarə edilməsində zabit-rəhbərlərin xüsusi qabiliyyətlərinin təkmilləşmə prosesi, onların hərbi-pedaqoji və döyüş ustalığı ordumuzun döyüş qabiliyyətinin əsasıdır.

5.Zabitlər tabelikdə olanların hərbi ustalığa yiyələnməsində mühüm rol oynayır, müasir texnika və silahların öyrənilməsi, xidməti və döyüş tapşırıqlarının yerinə yetirilməsi üçün zəruri olan mənəvi-döyüş keyfiyyətlərinin formalaşdırılmasına rəhbərlik edirlər. Onlar tabelikdə olanlara öz təsirini müxtəlif vasitələrlə-sözlə, şəxsi nümunə ilə, kiçik hərbi qrupda müvafiq münasibətlərin yaradılması ilə həyata keçirirlər.

6.Zabit-rəhbər şəxsi heyəti öyrətməyi və qoşunlara rəhbərliyi həyata keçirir, döyüş meydanında silahlı mübarizəni təşkil edir və müharibədə qələbə qazanmağı təmin edir. Onların zəhməti sayəsində ordu mənəvi-təkmillik, şərəf və igidlik, intizam və sağlam vətənpərvərlik məktəbinə çevrilir.

Kiçik hərbi qruplarda sosial-psixoloji iqlimin idarə edilməsi üçün zabit-rəhbər bütün kateqoriyadan olan hərbi qulluqçuların səciyyəvi xüsusiyyətlərini həmişə diqqət mərkəzində saxlamalıdır. Birinci kateqoriyaya aid olan ordu sıralarına yeni gələn əsgərlərdir və onların səciyyəvi xüsusiyyətləri aşağıdakılardır:

- çağırış yaşı gənclərin həyata fəal daxil olmaları dövrü, vətəndaş və mənəvi formalaşma zamanıdır;
- 18-20 yaşda olan gənclər onları əhatə edən hər şeyə qarşı həssas olurlar, həyat prinsiplərini, mənəvi dəyərləri və öz ideallarını müəyyənləşdirməyə çalışırlar;
- bu yaşda onlar heç də həmişə həqiqətən onlara lazım olanları və ya hadisələri, bəzən çox cəlbedici və parlaq şəkildə özünü göstərən neqativ hallardan və ya hadisələrdən düzgün ayıra bilmirlər. İctimai əhəmiyyətli düşüncələrdə və hərəkətlərdə bəzən onların ictimai-siyasi yetginliyinin lazımınca olmaması özünü büruzə verir. Onlar üçün mürəkkəb ictimai həyat proseslərindən baş çıxarmaq, orada öz yerlərini düzgün müəyyənləşdirmək çətindir. Onların dünyagörüşləri heç də həmişə məqsədyönlü və sistemləşdirilmiş olmur;

- bu yaşda gəncləri öz ideallarının tamamlanması, onların maraq və ideallarına uyğun gəlməyən hər şeyə dözümsüzlük səciyyələndirir. Onlar ətraflarında baş verən hadisələrə çox həssas yanaşırlar, ətraf həyatdakı dəyişikliklərə kəskin reaksiya verirlər, onlara fəal surətdə uyğunlaşmağa çalışırlar. Cəmiyyətin bazar iqtisadiyyatına keçməsi, təbiidir ki, gənclərin psixologiyasına və mənəvi simasına da təsir edir. Onların bir çoxu hələ erkən yaşlarından kommersiya fəaliyyətinin, kriminal aləmin qayda-qanunlarına adət edir, böyük miqdarda pula öyrəşir və adamlarla qarşırıqlı əlaqələrini bunlara əsasən qururlar;

- əhalinin sosial tərkibində baş verən keyfiyyət dəyişiklikləri gənclərə də təsir göstərmişdir. Gənc nəslin bir çox nümayəndələri arasında hamı üçün vacib olan Silahlı Qüvvələrdə xidmət etmək bəzən boş vaxt itirmək sayılır. Valideynləri, qohumları və həmyaşıdları arasında hərbi xidmətə neqativ münasibət onlara da böyük təsir göstərir;

- çağırışçılar arasında tam olmayan ailələrdə böyüyənlər də çoxdur. Onlardan hər beşdən biri orduya çağırılana qədər ya atasız, ya da anasız, babalarının və ya nənələrinin himayəsində, internatlarda və ya uşaq evlərində böyümüşlər. Hesablamalara görə çağırışçıların böyük hissəsi çağırışa qədər heç yerdə işləməyib və oxumayıblar. Bu vəziyyət gənclərin yetişməsində, onların sosial-ictimai dünyagörüşlərinə müəyyən əks-təsir göstərmişdir.

Bu dövrdə zabit-rəhbərlərin əsas vəzifəsi döyüşçülərin ordunun həyat və fəaliyyət şəraitinə səmərəli uyğunlaşmasını təmin etməkdən ibarətdir. Birinci kateqoriyaya aid olan əsgərlərlə tərbiyəvi işin təşkilində zabit-rəhbər sosial-psixoloji iqlimi daha yaxşı idarə etmək üçün aşağıdakıları nəzərdə tutmalıdır:

- orduya yeni gələn əsgərlərdə hərbi xidmətin ilkin məqsəd və vərdişlərinin, əsgəri borcun və nizamnamə tələblərinin şüurlu surətdə yerinə yetirilməsinə, həmçinin onlarda mütəşəkkillik, icraçılıq, yüksək intizam, komandirlərə və rəislərə hörmətli münasibət göstərmək kimi müsbət keyfiyyətlərin fəal surətdə formalaşmasına xüsusi diqqət vermək lazımdır;

- gənc döyüşçülərə hərbi andın və nizamnamələrin tələblərinin, qəhrəmanlığın və igidliyin mahiyyətinin və məzmununun, hərbi hissənin Döyüş bayrağına sədaqətli olmalarının izah olunması məqsədəuyğundur;

- gənc əsgərlərə gündəlik qayğı göstərilməsi, onların məişət problemlərinin vaxtında və operativ həll olunması daim diqqət mərkəzində olmalıdır;

- gənc əsgərlərin mənəvi-psixoloji və işgüzarlıq keyfiyyətinin fasiləsiz öyrənilməsinə fikir vermək, adamlara qaynayıb-qarışmayan, psixikasında və davranışında çatışmazlıqlar hiss olunan, gülüş və zarafat obyektinə çevrilən, öz doğma evi üçün çox darıxan gənc əsgərlərlə fərdi-tərbiyəvi işin aparılmasını daim nəzarətdə saxlamaq lazımdır;

- kiçik hərbi qrupların komandirlərinin gənc döyüşçülərin hərbi xidmətə uyğunlaşmasının gedişi, onların davranışının, əhval-ruhiyyəsinin, sağlamlıqlarının, psixikalarının vəziyyəti haqqında gündəlik informasiya verilməsinə xüsusi diqqət yetirilməlidir;

- ümumqoşun nizamnamələrinin müddəalarının öyrənilməsinin və izah olunmasının, hərbi, hüquqi və mənəvi tərbiyə mövzularında söhbət və informasiyaların təşkil olunmasına nəzarət etmək lazımdır;

- orduya yeni gələnlər öz funksional vəzifələrini çox tez mənimsəyirlər, təlimlərə daha peşəkarcasına və işgüzarcasına yanaşırlar, məşqələlərdə praktiki məqsədyönlük axtarıb, müəyyən edirlər. Onlarda bu zaman açıq şəkildə özünü göstərən xüsusiyyətlərdən biri özünütəsdiqdən, ümumi kütlədən müsbət cəhətcə ayrılmağa çalış-

maqdan və nədə isə fərqlənməkdən ibarətdir. Buna görə də, zabit-rəhbərin kiçik hərbi qruplarda sağlam sosial-psixoloji iqlimin məqsədyönlü formalaşmasına və idarə edilməsinə diqqət yetirməsi məqsədəuyğundur;

- şəxsi heyətdə Vətəni sevmək, düşmənə nifrət bəsləmək, işğal olunmuş torpaqların azad edilməsinə hazır olmaq hisslərinin tərbiyə olunması istiqamətində müvafiq tədbirlər həyata keçirilməlidir;

Əlbəttə, ailədə nəzarətsiz buraxılmış, mənəvi dünyası deformasiyaya uğramış gəncin orduya gələn kimi bir neçə günün içində dəyişib başqa adama çevriləcəyini fikirləşmək sadəlövhlük olardı. Ona görə də, zabit-rəhbər tərbiyəvi işində bu amili nəzərə almalı və kiçik hərbi qruplarda əlverişli sosial-psixoloji iqlim yaratmaqla həmin gəncdən Vətən qarşısında Konstitusiya borcunu dərk edən, torpağını, xalqını sonsuz məhəbbətlə sevən döyüşçü yetişdirməlidir.

İkinci kateqoriyaya hərbi hazırlıq kursunu bitirmiş və bilavasitə hərbi hissənin bölmələrində xidmətlərini davam etdirən gənc əsgərlər aid edilir. Bilavasitə bölmədə xidmət etməyin ilk dövrü gənc döyüşçülərə böyük təsir göstərir. Kiçik hərbi qruplarda xidmətə başladığı ilk günlərdən, ilk təəssüratlardan, komandanlıq və şəxsi heyətlə ilk görüşdən sonra onların kollektivdə yer tutmaları hərbi xidmətə aid münasibətlərindən asılıdır.

Bilavasitə bölmədə xidmətə başlayan əsgərlərlə tərbiyəvi işin təşkilində zabit-rəhbər bu kateqoriyadan olan hərbi qulluqçulara aid aşağıdakı müsbət və neqativ cəhətləri nəzərə almalıdır:

-18-20 yaşda olan gənclər bəzən onlar tərəfindən hipertrofirləşdirilən xüsusi ləyaqət hisslərinə malik olurlar. İlk dövrlərdə tələbləri və komandaları ağrılı qəbul edirlər. Gənclərə görə bu tələb və komandalar onların hüquqlarını məhdudlaşdırır və ləyaqətlərinə ləkə vurur;

- gənclərin səciyyəvi xüsusiyyətləri onların dostluğa, yoldaşlığa çox meyl etmələri və kollektivin onların şəxsi fikirlərinə münasibətində qısqanc olmalarıdır. Bununla bərabər, həmin dövrdə kəskin konformluq baş verir, bəzən onlar «hamı kimi» güc mövqeyindən çıxış edirlər;

- gənc döyüşçülər əvvəlki çağırışdan olan ağıllı, geniş dünyagörüşlü və qayğıkeş çavuş və əsgərlərə hörmət edirlər. Hərbi xidmətin ilk dövrlərində xidməti vəzifələrini vicdanla yerinə yetirmək gənc əsgərlər arasında onların əsgər yoldaşları tərəfindən heç də həmişə pozitiv qəbul edilmir;

- gənclərin əksəriyyəti xidmətin ilk günlərindən fiziki təkmilləşmələri üçün yaranan əlverişli şəraitdən tam istifadə etməyə çalışırlar.

İkinci kateqoriyaya aid olan əsgərlərlə tərbiyəvi işin təşkilində zabit-rəhbər sosial-psixoloji iqlimi səmərəli idarə etmək üçün aşağıdakıları nəzərə almalıdır:

- gənc əsgərlər kiçik hərbi qruplara gələn gündən tərbiyə işində əsas səy ştat-vəzifə təyinatına uyğun olaraq, onları sıraya daxil etməyə yönəltməkdir. Fərdi-döyüş hazırlığı planlarına uyğun olaraq, onlara yaxın və perspektiv tapşırıqlar verilməlidir. Onların ümumi tərbiyə işləri sisteminə və bölmədə keçirilən tədbirlərə daxil edilməsi məqsədəuyğundur. Əvvəlki çağırışdan olan yaşlı hərbi qulluqçular tərəfindən onlara münasibətdə qeyri-nizamnamə münasibətlərinə yol verilməməsinə xüsusi diqqət yetirilməlidir;

- silah və döyüş texnikasının təqdim edilməsinin, ilk səhra məşğələlərinə başlamağın, tədris və xidmətdə ilk həvəsləndirilmənin elan olunmasının təntənəli şəkildə keçirilməsi məqsədəuyğundur;

- bu dövrdə gənc əsgərlərin kiçik hərbi qrupların kollektivinə daxil olmalarına hərtərəfli nəzarət olunmalıdır. Onlara tədris, xidmət, məişət və asudə vaxtlarının təşkilində köməklik göstərilməli, kollektiv üzvləri ilə daha sıx birləşməsi, hərbi intizamın möhkəmləndirilməsi, sağlam sosial-psixoloji iqlim yaranması üçün müvafiq tədbirlər həyata keçirilməlidir;

- tədris-döyüş hazırlığının, qarovulun, sutkalıq naryadın təşkilində gənc əsgərlərin xüsusiyyətlərinin, şəxsiyyətlərarası münasibətlərinin, xarakterlərinin müsbət və mənfi cəhətlərini nəzərə almaq lazımdır;

- tərbiyəvi tədbirlərdə Silahlı Qüvvələrin, hərbi hissəsinin tarixi, döyüş yolu, ənənələri ilə bağlı hərbi-peşəkarlıq və tarixi-vətənpərvərlik mövzularına xüsusi diqqət verilməlidir;

- gənc əsgərlərin ictimai işlərə cəlb olunmasına və onlara müxtəlif ictimai tapşırıqların və vəzifələrin verilməsinə nəzarət olunmalıdır.

Bu mərhələdə bölmələrdə hərbi xidmətə başlayan əsgərlərlə tərbiyəvi işin təşkilində zabit-rəhbər sağlam sosial-psixoloji iqlimi idarə etmək üçün döyüşçünün mənəvi-döyüş və hərbi-peşəkarlıq keyfiyyətlərinin möhkəmləndirilməsini və inkişafını əsas məqsəd kimi qarşısına qoymalıdır.

Üçüncü kateqoriyaya hərbi xidmətinin ikinci yarısından xidmətini başa çatdırana qədər müddətdə xidmət edən əsgərlər daxildirlər. Bu kateqoriyaya aid olan hərbi qulluqçularla tərbiyəvi işin təşkilində zabit-rəhbər sosial-psixoloji iqlimi yetərincə idarə etmək üçün aşağıdakıları nəzərə almalıdır:

- bu kateqoriyadan olan şəxsi heyət hərbi xidmətin əhəmiyyətini, milli təhlükəsizliyin təmin olunmasında özünün ictimai-siyasi mövqeyini, yerini və rolunu dərindən başa düşür. Döyüş hazırlığının yüksəldilməsi və intizamın möhkəmləndirilməsində onların şəxsi məsuliyyət hissinin artırılmasına daim diqqət vermək lazımdır;

- bu şəxsi heyətin hərbi-peşəkarlıq ustalığının gələcəkdə də təkmilləşdirilməsinə xüsusi fikir verilməlidir;

- müəyyən olunmuş normativlər əsasında və proqram həcmində bu şəxsi heyətin fərdi hazırlığının yoxlanılmasını təşkil etmək lazımdır;

- tədris-döyüş hazırlığında hərbi qulluqçuların qarşılıqlı köməyindən, həvəsləndirilmələrin və cəzalandırmaların tədbiqindən fəal istifadə edilməlidir. Döyüşçülərin döyüş hazırlığında qazandığı uğurlara, o cümlədən yaxın ixtisasları mənimsəmək sahəsində müvəffəqiyyətlərə görə həvəsləndirilməsi məqsədəuyğundur;

- kütləvi-tərbiyəvi işin təşkilində şəxsi heyətin öz ustalığını fasiləsiz təkmilləşdirməyə, kollektivdə mənəvi-əxlaqı və qarşılıqlı nizamnamə münasibətlərinin olmasına diqqət vermək lazımdır.

Növbəti-dördüncü və sonuncu kateqoriyaya Silahlı Qüvvələrin ən çoxsaylı komanda kadrları olan çavuş heyəti aid edilir. Çavuşlarla aparılan tərbiyəvi işin əsas istiqamətləri aşağıdakılardır:

- hərbi anda sədaqətli olmaq;
- hərbi xidmətin çətinliklərini dəf etmək və hərbi ixtisasları vicdanla öyrənməyə səy göstərmək;
- intizamlı olmaq;
- işğal edilmiş torpaqlarımızın azad edilməsinə hazır olmaq;
- komandirlərə və əsgəri yoldaşlığa hörmətlə yanaşmaq.

Kiçik komandirlərlə işləyən zabit-rəhbərlər bu kateqoriyadan olan hərbi qulluqçulara mənsub aşağıdakı səciyyəvi xüsusiyyətləri nəzərə almalıdırlar:

- əsgərlərin bilavasitə rəisləri olan bu kiçik komandirlər vəzifə borclarına görə öz tabeliyində olanlarla daha yaxın münasibətdədirlər, əslində bütün sutka ərzində onlarla bir yerdədirlər. Daima birgə qulluq etmələri və ümumi yaşayış şəraiti onların yaxınlaşdırılmasına, hiss olunmadan rəis və tabelikdə olanları fərqləndirən münasibətlərin görünməz psixoloji həddini daha tez və hiss olunmadan keçilməsinə şərait yaradır;

- çavuşlar, bir qayda olaraq, öz tabeliyində olanlarla yaşıddırlar, deməli, bir tərəfdən onları həmin yaş qrupunun bütün xüsusiyyətləri birləşdirir, o biri tərəfdən, onlar öz həmyaşıdlarından tədris sahəsində əldə etdikləri xidməti təcrübələrinə və hərbi biliklərinə görə fərqlənirlər;

- kiçik komandirlərin bəziləri öz vəzifələrini yerinə yetirməyə zəif hazırlaşmışlar. O cümlədən, onlarda tabeliyində olanlarla tərbiyəvi iş vərdişi, kiçik hərbi qrupu idarə etmək bacarığı yox dərəcəsindədir;

- bu və ya digər həyati situasiyada müəyyən davranış qaydalarının səhvsiz müəyyənləşdirilməsi çavuşlar üçün çətin məsələ olaraq qalır.

Kiçik komandirlərlə tərbiyəvi işin təşkilində zabit-rəhbər sosial-psixoloji iqlimi lazımınca idarə etmək üçün aşağıdakılara fikir verməlidir:

- kiçik komandirlərin tərbiyəvi işin forma və metodları üzrə məşğələlər və tədbirlər keçirmələrinə, tabeliklərində olan kiçik hərbi qrupda yüksək sosial-psixoloji iqlimin təmin edilməsinə, əsgəri intizamın möhkəmləndirilməsinə daim nəzarət etmək lazımdır;

- kiçik komandirlərdə emosional-iradi davamlılığı və kiçik hərbi qrupu mürəkkəb şəraitlərdə idarə etmək bacarığını formalaşdırmağa fikir verilməlidir. Onların psixoloji hazırlığında çöl bacarığı, məşğələlərin gecə və gündüz, hər cür hava şəraitində, müxtəlif ərazilərdə, döyüşə maksimum yaxın vəziyyətdə keçirilməsinin böyük rolu vardır. Məsələn, motoatıcı hissələr üçün tankın sürülüb-yoxlanılması, manqa tərkibində dağ maneələri zolaqlarının dəf edilməsi, dərə-təpəlik ərazilərdə gecə marşlarının keçirilməsi kimi kompleks təlimlər və s. tətbiq oluna bilər;

- çavuşların öz vəzifə, hüquq və borclarını dərindən mənimsəmələrinə daim fikir verilməlidir;

- kiçik komandirlərdə tərbiyəçi keyfiyyətləri aşılamaq və fərdi tərbiyə işləri vərdişlərini inkişaf etdirməyə nəzarət etmək lazımdır.

Beləliklə, kiçik komandirlərlə tərbiyəvi iş mürəkkəb və çoxcəhətli işdir, onun məqsədi çavuşlardan zabit-rəhbərlərin köməkçiləri və tabeliyində olanların bacarıqlı tərbiyəçiləri yetişdirməkdən ibarətdir. Bu məqsədə aşağıdakı şərtləri yerinə yetirməklə çatmaq olar:

- çavuşun kiçik hərbi qrupda xidmətinin birinci günündən sonuncu gününə qədər tərbiyəvi prosesin arasıkəsilməzliyi;
- bu işdə bütün komandir heyətinin iştirakı;
- tərbiyəvi işin qabaqcıl bilik və təcrübələrə əsaslanması;
- kiçik komandirlərin yetişməsinin, onların peşəkarlıq və pedaqoji səviyyələrinin artmasının fasiləsiz inkişafı.

Kiçik hərbi qruplarda elə sağlam sosial-psixoloji iqlim yaradılmalıdır ki, orada qulluq edən əsgər özünü, birinci növbədə, hərbi kollektivin üzvü, sonra isə tərbiyə edilən hərbi qulluqçu kimi təsəvvür edə bilsin. Onların nəzərində zabit-rəhbər də, birinci növbədə kiçik hərbi qrupun üzvü kimi, sonra isə rəhbər, peşəkar hərbçi kimi çıxış etməlidir. Buna görə də, zabit-rəhbərlə əsgərin münasibəti yalnız sırf hərbi tələblərə, hərbi xidmətin mənafeyinə deyil, kiçik hərbi qrupun tam dolğun həyatı uğrunda,

bu həyatın anlaşıqlı və mənalı olması uğrunda mübarizənin mənafeyinə tabe etdirilməlidir.

Nəticədə, onu qeyd etmək lazımdır ki, kiçik qruplarda olan sosial-psixoloji iqlim bütün kateqoriyadan olan komandirlərin daim diqqət mərkəzində olmalıdır. Zabit-rəhbər müxtəlif kateqoriyadan olan hərbi qulluqçularla fərdi və qrup söhbətləri aparmalı, intizam təcrübəsi və keçirilən tərbiyəvi tədbirlərin səmərəliliyini təhlil etməlidir. Zabit-rəhbərlərin şəxsi heyətlə işinin əsas səyini, təcrübələr göstərdiyi kimi, bilavasitə kiçik hərbi qruplara yönəltmək lazımdır. Onların əsas vəzifələri kiçik hərbi qruplarda olan sosial-psixoloji iqlimin vəziyyətini öyrənməkdən, hərbi qulluqçular arasındakı qarşılıqlı münasibətlərin təhlilindən və bu sosial-psixoloji iqlimi effektli idarə etməklə onu kollektiv qarşısında duran tapşırıqların həllinə yönəltməkdən ibarətdir.

Beləliklə, kiçik hərbi qrupların idarə edilməsində sosial-psixoloji iqlimin rolu mövzusu Ordumuz üçün xüsusi aktuallıq kəsb edir. Çünki, hələ də Azərbaycanın ayrılmaz hissəsi olan füsunkar Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayonumuz düşmən tapdağı altındadır. Məkrli qonşularımızın siyasəti bu torpaqları zaman keçdikcə mənimsəmək və «Böyük Ermənistan» yaratmaqdır. Elə bunun nəticəsidir ki, onlar sülh danışıqlarını uzadaraq, konkret bir nəticəyə gəlmək istəmirlər. Belə olan halda Silahlı Qüvvələrimiz Ali Baş komandanımız, prezident İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızı azad etməli və soydaşlarımız öz dədə-baba yurdlarına qayıtmalıdırlar. Qarşıda bizi gözləyən döyüş əməliyyatlarında qələbənin əldə olunması son anda kiçik hərbi qruplarda olan sosial-psixoloji iqlimdən və onun necə idarə olunmasından da asılı olacaqdır.

## ƏDƏBİYYAT


1.Подоляк Я.В. Личность и коллектив: психология военного управления. М.: Воениздат, 1989, 350 с.
2.Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: Qapp-poliqraf, 2003, 356 s.
3.Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. XXII kitab. Bakı: Azərnəşr, 2007, 528 s.
4.Salih Güney. Davranış bilimleri. Ankara: Kara Harp Okulu Basımevi, 1997, 689 s.
5.Askeri liderlik ders kitabı (psikoloji). Ankara: İstehkam, 2002, 235 s.
6.Çobanov M.N. Görkəmli strategiyaçı. Bakı: Hərbi nəşriyyat, 2004, 47s.
7.Məmmədov V.M. Şəxsi heyətin hərbi vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunmasının əhəmiyyəti // Hərbi bilik jurnalı, 2006, №1, s. 59-63.


## СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЙ КЛИМАТ В МЕЛКИХ ВОИНСКИХ ГРУППАХ И ЗАДАЧИ ПО ЕГО УПРАВЛЕНИИ


**А.А.ШИРИЕВ**



**РЕЗЮМЕ**

Состояние коллектива, которое характеризуется уровнем социального восприятия и мерой удовлетворенности его членов различными сторонами общения и взаимодействия, называется социально-психологическим климатом.

Велика роль офицерского корпуса для обеспечения безопасности республики и поддержании Вооруженных Сил в постоянной боевой готовности. Сегодня нашей молодой Национальной Армии нужны не просто высококвалифицированные офицеры-руководители, а психологически мыслящие, мудрые в управлении профессионалы.

При управлении социально-психологическим климатом в мелких воинских

группах офицер-руководитель должен учитывать особенности всех категорий личного состава.

Повседневная практика пõдтверждает, что эффективному управлению социально-психологическим климатом в значительной степени способствует анализ индивидуальных и групповых мнений тех настроений, которые создают коллективное психическое состояние и определяют соответствие климата стилю управления.

При управлении мелкими воинскими группами, социально-психологический климат имеет своеобразные черты как для мирного времени, так и при подготовке и выполнении боевых задач.

## SOCIALLY PSYCHOLOGICAL CLIMATE IN SMALL MILITARY GROUPS AND PROBLEMS OF ITS MANAGEMENT

**A.A.SHIRIYEV**

### SUMMARY

The condition of a collective which is characterised by the level of social perception and a measure of satisfaction of its members by various parties of a dialogue and interaction is called a socially-psychological climate.

The role of the officer case for Safety of the Republic and maintenance of Armed Forces in constant alertness is great. Today, our young National Army needs not only highly skilled officers-heads, but also psychologically conceiving wise professionals in management.

At the management of a socially psychological climate in small military groups the officer-head should consider the features of all the categories of the staff.

Daily practice confirms that the efficient control of a socially-psychological climate is promoted substantially by the analysis of the individual and group opinions, the moods which create a collective mental condition and define the conformity of a climate to a management style.

At the management of small military groups, the socially psychological climate has original lines, both for peace time and preparation and performance of fighting problems.